

Avstraliya polisi silahlı terrorçunun girovlarla birgə saxladığı Sidney mərkəzindəki, “Lindt” kafesinə hücum etmək qərarı verib.

AzNews.az-ın məlumatına görə, silahlı asayiş qoruyucuları binaya daxil olduqdan sonra atəş və hətta partlama səsi eşidilib. Bu zaman girovlardan bir çoxu binanın tərk edə bilib.

Cinayətkar “Şeyx Xaron” ləqəbli, 49 yaşlı Men Xaron Monisdir. Xəbər verilir ki, o, Avstraliyaya 1996-cı ildə İrandan qaçqın statusu ilə gəlib. Əvvəllər o seksual xarakterli cinayətlərdə və qətldə iştirakdan məhkum edilsə də girov müqabilində sərbəst buraxılıb.

Qeyd edək ki, hadisə yerli vaxtla bazar ertəsi səhər cərəyan edib. Martin Pleys meydanında

olan “Lindt” kafesi içindəki müştərilər ilə birgə silahlı şəxs tərəfindən nəzarətə götürülüb. Polis neçə nəfərin girov götürülməsi və cinayətkarın tələbi barədə heç bir məlumat vermirdi. Terrorçu girovları əlləri yuxarı vəziyyətdə kafenin vitrinlərinə tərəf düzmüşdü. Bir neçə dəqiqə iki girovun əlində qara bayraq tutulur. Bayraqda ağ hərflərlə “Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın Rəsuludur” sözləri yazılmışdı.